**UOT 94(470) "1150/15"**

# MÜASİR DÖVRDƏ RUSİYANIN ASİYA QİTƏSİNDƏ GEOSİYASİ ROLU

**M.P.OSMANLI**
***Bakı Dövlət Universiteti***
***meharet.osmanlı@mail.ru***

*XXI əsrin əvvəllərində Avropa və Asiya ölkələri arasında qarşılıqlı münasibətlərin yeni formaları tədricən formalaşmağa başlayır. Ümumiyyətlə, Rusiyanın mövqeyi, onun rəyi və təklifi nadir hallarda nəzərə alınırdı.*

*Məqalədə Rusiyanın Asiyadakı geosiyasi məğlubiyyəti Rus-Yapon münasibətlərinin aspektləri və həmçinin Rusiyanın Asiya ölkələri ilə münasibətləri perspektivləri araşdırılır.*

**Açar sözlər**: Rusiya, Asiya, ABŞ, geosiyasət, qitə

Siyasi dairələrdə Rusiyanın geosiyasi məğlubiyyəti haqqında fikirlər artıq tez-tez səsləndirilərək həqiqət kimi qələmə verilir. Lakin çox zaman tədqiqatçılar və analitiklər miqyas, nəticə və konkret təzahür hallarını lazımi qədər analiz etmir və diqqətdən kənarda saxlayırlar. Əgər Rusiyanın xarici siyasətində qərb yönümü ölkə rəhbərliyinin doktrina xarakterli bəyanatlarında və rəsmi sənədlərində öz əksini tapmışsa da, Şərq ölkələrinə münasibət bir qayda olaraq ümumi xarakterli şüarlarla kifayətlənilmişdir və çox zaman konkret hərəkətlərlə bu bəyanatlar möhkəmlənilmir.

Ümumiyyətlə, Rusiyanın geosiyasi məğlubiyyətinin acı nəticələrindən çox şey danışmaq olar. Bunlardan yalnız biri-mərkəzi və əsas cəhəti haqqında danışmaq, konkret olaraq, ən iri Asiya ölkəsi olan Çinə münasibətlə bağlı mövqe haqqında bəhs etmək yerinə düşər. Keçən əsrin birinci yarısında indiki Çin yarımmüstəmləkə, zəif və geridə qalmış ölkə, böyük dövlətlərin siyasətinin obyekti olmuşdusa, hal-hazırda Çin təkcə, hərbi cəhətdən deyil, iqtisadi baxımdan da İkinci dünya dövləti səviyyəsinə qalxmışdır (1, 110).

Rusiyaya münasibətdə isə buna tamam əks mənzərə müşayiət olunur. Rusiya qısa vaxt ərzində fövqəldövlətdən və dünya siyasətinin qabaqcıl subyektindən, sürətli inkişaf templəri ilə irəliləyən ölkədən xarici ölkələrin təsir obyektinə çevrilmişdir. Rusiyanın Qərbi Avropa ölkələri ilə münasibətdə rolu,

yeri və şəraiti köklü şəkildə dəyişmişdir. Öz-özlüyündə problem çoxəsrlik tarixə malikdir və onun ətrafında həmişə qızğın mübahisələr getmişdir.

Rusiya özü həmişə Qərb və Şərqi əlaqələndirən vəsilə rolunu oynamışdır. Öz-özlüyündə bu rola indi digər dövlətlər də cəhd edirlər. Bu baxımdan Qazaxıstan prezidenti N.Nazarbayevin etirafı xarakterikdir. O, 1998-ci ilin aprelində verdiyi müsahibədə bildirmişdi ki, Qazaxıstan Avropa və Asiya arasında məkan rolu oynamaq niyyətindədir. Bu məkanda N.Nazarbayevin fikrincə, qərb və şərq mədəniyyətlərinin, belə demək olarsa, sivilizasiyasının fəal qarşılıqlı təsiri və qarşılıqlı nüfuzu baş verir (2, 132).

XXI əsrin əvvəllərində Avropa və Asiya ölkələri arasında qarşılıqlı münasibətlərin yeni formaları tədricən formalaşmağa başlayır, özü də Rusiyanın zəruri və lazımi iştirakı olmadan baş verirdi. İndi artıq ümumi problemlərin müzakirəsi və həll edilməsi üçün Avropa və Asiya ölkələrinin iki görüşü keçirilmişdir. Lakin gözlənildiyi kimi, Rusiya hər iki görüşə dəvət almamışdı. Yəqin ki, məsələ hələ çox-çox əvvəllər formalaşmış olan Avropanın Rusiyaya Asiya ölkəsi kimi baxmasında, Şərq ölkələrinin isə Rusiyanı yalnız Avropa ölkəsi kimi qiymətləndirilməsində deyil. Məsələnin əsl mahiyyəti Rusiyanın dünya siyasətində rolu və nüfuzunun get-gedə lap aşağı düşməsindədir. İndi demək olar ki, çox az-az hallarda müxtəlif məsələlərin həllində Rusiyanın mövqeyini və rəyini nəzərə almaq yada düşür, ya da ümumiyyətlə, yada düşmür.

Rusiyanın geosiyasi məğlubiyyəti, bu ölkənin Asiyadakı bütün konkret istiqamətləri üzrə asanlıqla müşahidə edilir. Uzaq Şərq qonşularından başlayaraq Rusiya Federasiyasında sərhədlərinin perimetri boyunca yerləşmiş ərazilərdə baş vermiş hadisələrin qısa analizi bunu bir daha təsdiq edir.

Rusiya-Yaponiya münasibətlərinin bütün aspektlərinin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bütün münasibətlər yaponların dörd Cənubi Kuril adalarına olan iddiaları ətrafında qurulur. Halbuki, Yaponiyanın qoparmaq istədiyi bu ərazilər həm beynəlxalq hüquq normalarına, həm də tarixən Rusiyaya məxsusdur. Hər halda rəsmi Rusiya mətbuatı, tarixçilər və digər mütəxəssislər bu faktı əsaslandırmaq üçün dəridən-qabıqdan çıxırlar. Özü də belə tələblər, bir qayda olaraq zəif və ya məğlub olmuş ölkə qarşısında irəli sürülür. Fərq yalnız ondadır ki, Yaponiya tərəfi bütün danışıqlar boyu ərazi məsələlərində ediləcək güzəştlərin qarşılığında Rusiyaya maliyyə yardımı göstərəcəyini bəyan etmişdir (3).

Bu məsələ ilə bağlı Rusiyaya açıq və daimi təzyiqlər amerikanlar tərəfindən də göstərilir. Hələ 1998-ci ilin yazında ABŞ-ın Moskvadakı səfiri D.Kollinz bildirmişdi ki, Cənubi Kuril adaları sözsüz olaraq Yaponiyaya mənsubdur. ABŞ Dövlət Departamenti tərəfindən müdafiə olunan belə bəyanatlar D.Kollinzdən əvvəlki səfir vasitəsilə də bildirilmişdi (4).

Qeyd etmək lazımdır ki, Rusiyanın Yaponiya tələblərinə güzəştə getməsi prosesi 1993-cü ilin oktyabrından başlayaraq, yəni B.Yeltsin və Yaponiya baş nazirinin Tokio şəhərində bəyannamə imzalanmasından sonra daha da sürət-

lənmişdi. Həmin bəyannamədə Yaponiyanın ərazi probleminin qanuni və ədalətli olmasından danışılmır, İturun, Kunaşir, Şikotan və Xaboman adalarının mənşəyi məsələsinə toxunulurdu. Bu isə yaponların iddiaları qarşısında geri çəkilmə demək idi. Lakin yaponlarla açıq şəkildə ərazi alqı-satqısı haqqında söz-söhbətlər Yaponiya baş naziri Ryutaro Xasimotonun B.Yeltsinlə iki qeyri-rəsmi görüşündən sonra daha da artmış oldu. Tərəflər görüşlərin qeyri-rəsmiliyini əsas götürərək hər hansı bir kommunike dərc etdirməmişdilər. B.Yeltsin və Xasimotonun 1997-ci ilin noyabrında Krasnoyarskdakı görüşündən sonra bəyan edildi ki, təxminən 2000-ci ilə yaxın Rusiya və Yaponiya arasında sülh müqaviləsi imzalanacağı gözlənilir (1, 129).

Yapon mətbuatının rəsmi diplomatik dairələrə istinadən verdiyi məlumatlara görə məhz həmin vaxt Rusiya Kuril adaları üzərində suverenitet hüququnu Yaponiyaya verməli idi. Həmin vaxt mətbuatda «Yeltsin-Xasimoto planı» haqqında xəbərlər yayılmağa başladı. Yəqin ki, Kraysnoyarskda Yaponiya tərəfinin Rusiyaya milyard yarım məbləğində kredit ayrılması haqqında xəbərin elan edilməsi təsadüf deyildi. Bu doğrudan da, «alış-verişə» bənzəyirdi (1, 139).

Bundan başqa dövlət başçılarının iki «qalstuksuz görüşü» arasında baş vermiş olan bir hadisə də diqqəti cəlb edir. 1998-ci ilin fevralında Dövlət Dumasının iclası gedişində hökumətin səlahiyyətli nümayəndəsi B.Yeltsinin adından Duma komissiyalarında hazırlanmış Rusiyanın ərazi bütövlüyünün təmin olunması haqqında qanun layihəsinə etirazını bildirmiş və layihənin belə bir maddəsinin çıxarılmasını tələb etmişdi ki, Rusiyanın ərazisi bölünməzdir, toxunulmazdır və onun heç bir hissəsi xarici dövlətə güzəştə gedilə bilməz (1, 148).

Bu tələb ikinci dəfə 1998-ci ilin aprelində Yaponiyanın kurort şəhəri Kavanada B.Yeltsinin Xasimoto ilə görüşü ərəfəsində də səsləndirilmişdi. Bu baxımdan, ikinci qeyri-rəsmi görüşün nəticələrinin elan edilməsi bir qədər yenilik idi. 1998-ci ilin aprelin 19-da Mərkəzi Televiziyanın şərhçisi belə bir ifadə işlətmişdi ki, adaları, hələ ki, verməmişik. Bunun ardınca isə bildirilmişdi ki, yaponların Cənubi Kuril adalarında balıqçılıq kombinatı tikmək niyyətləri və Moskva vilayətində avtomobil istehsal edən zavod açmaq barədə planları var. Bu görüşün əsas yekunu isə bundan ibarət idi ki, tərəflər sülh müqaviləsinin imzalanmasına hazırlıq işlərinin sürətləndirməyin zəruriliyi ilə razılaşdıqlarını bildirmişdilər. Bu ərəfədə Y.Primakovun etiraf etdiyinə görə, sülh müqaviləsində ərazi məsələsi də öz əksini tapmalı idi. Görüşün nəticələri haqqında yekun məlumatına belə bir müddəa da əlavə edilmişdi ki, Yaponiya Baş naziri ərazi problemlərinin həll edilməsi üçün öz təkliflərini də irəli sürmüşdür. Lakin məlumatda bu təkliflərin məzmunu haqqında heç nə deyilmirdi (1, 165).

Buradan yalnız bir qənaətə gəlmək mümkündür: ərazi məsələsində Rusiyaya məlum nöqtədən göstərilən təzyiq və təsirlər günbəgün güclənməkdə idi. Belə bir vaxtda İngiltərənin Leyborist partiyasının nüfuzlu xadimlərindən biri Con Rodsun hələ 1953-cü ildə demiş olduğu bir ifadə yada düşür: «20 ildən sonra Rusiya sıxılmış, əzilmiş bir əraziyə, səhraya çevriləcək, ABŞ və Yaponiya bu yerlərə sahib olmaq uğrunda amansız, əlbəyaxa mübarizə aparacaqlar» (5, 2).

Qısaca da olsa, Koreya məsələsini nəzərdən keçirmək zəruridir. Rusiya öz Uzaq Şərq qonşusu Koreya ilə ta qədimdən möhkəm tarixi əlaqələrə malikdir. Vaxtilə Qaydar hökumətinin amerikanlıların xeyrinə apardığı KXDR ilə siyasi əlaqələrə müəyyən qədər fasilə verilməsi ilk növbədə Rusiyanın siyasi və milli maraqlarına ağır zərbə vurmuş oldu. Koreya Respublikası ilə diplomatik münasibətlərin qurulması, xüsusilə siyasi əməkdaşlıq sahəsində problemləri aradan qaldıra bilmədi. Bununla da, Rusiyanın Koreya problemi ilə bağlı problemlərin həllində hər hansı bir formada iştirak etməsi imkanları ləğv edilmiş və bu məsələdə, bu regionda öz milli mənafelərini müdafiə etmək imkanları aradan qalxmışdı. Çünki artıq xeyli vaxtdır ki, iki Koreya dövləti arasında danışıqlar yalnız ABŞ və ÇXR-in iştirakı ilə aparılır və bu məsələlərdə Rusiyanın mövqeyi tam inkar edilir (2, 169).

B.Yeltsin XİN-də çıxış edərkən ÇXR ilə münasibətləri, Yaponiya və Hindistanla birlikdə, xarici siyasət fəaliyyətinin prioritet istiqaməti adlandırmışdı. Həmin çıxışda ÇXR ilə münasibətlərin əsasında iki mühüm konsepsiyanın – strateji tərəfdaşlıq və çoxqütblü dünyanın yaranmasına nail olmağın dayandığı bildirilmişdi. Lakin bu iki konsepsiya Rusiyada və Çində heç də birmənalı, yaxud eyni mənada qəbul edilmir. ÇXR-in bu məsələlərdəki mövqeyi tanınmış çinli politoloq Y.Çek Epin məqalələrinin birində kifayət qədər əsaslandırmışdır. Politoloqun fikrincə, qlobal perspektivlər baxımından, Çin Rusiyanın Qərblə yarışmasında onun tərəfdaşı ola bilər. Rusiya tərəfindən isə Qərbə qarşı dayanma halı istisna edilir (2, 171).

Çoxqütblü dünya qurulması məsələsinə gəldikdə isə ÇXR məhz özünü belə əsas qütblərdən biri hesab edir. Yəqin ki, Rusiya da özünün belə qütblərdən biri sayılmasını arzu edərdi. Halbuki Rusiyanın indiki beynəlxalq imici və beynəlxalq problemlərin həllində iştirakı bu cür deməyə heç bir əsas vermir. Yenə də əvvəlki illərdə böyük dövlətlərin geosiyasi yarışmasında məruz qalmış olduğu acı məğlubiyyətlər və get-gedə əldən verilmiş və zəifləmiş mövqeləri ucbatından.

Əgər ÇXR öz ölkəsinin xüsusi inkişaf strategiyasının reallaşdırılması hesabına, hazırda dünyada «ikinci fövqəldövlətə» çevrilmişdisə, Rusiyaya «Qorbaçov yenidənqurması» və Beynəlxalq Valyuta fondunun tövsiyələri əsasında həyata keçirilmiş islahatlar nəticəsində əvvəlcə SSRİ-nin dağılmış xarabalıqları, indi isə ölkənin və onun iqtisadiyyatının mərhələ-mərhələ parçalanması qisməti nəsib olmuşdur.

ÇXR-də təkcə son on ildə ümumi daxili məhsulun həcmi iki dəfə artdığı halda, Rusiyada bu göstərici 2 dəfə azalmış və o, hal-hazırda dünya dövlətləri sırasında 102-ci yerdə dayanır. Doğrudur, Rusiyanın əvvəlki hərbi qüdrətinin müəyyən bir hissəsi hələ də qalmaqda davam edir. Lakin bunun da müddəti 5-10 il arasında olacaqdır. Çünki hər 4-5 ildən bir mövcud hərbi potensial köhnəlir, hər 10 ildən bir isə bütün hərbi texnika və silahlar artıq sıradan çıxır. Bu isə o deməkdir ki, təxminən 10 ildən sonra Rusiya Qərb üçün daha təhlükəli sayıl-

mayacaq. Lakin Rusiya bu gün yenə də özünün «gücünün» gücsüzlüyünü göstərməkdə davam edir (6, 90).

Belə bir fikri inkar etimək qeyri-mümkündür ki, Rusiyanın əksər Asiya dövlətlərində və regionlarında, o cümlədən MDB-yə daxil olan Mərkəzi Asiya respublikalarında da, geosiyasi rolunun durmadan azalması prosesi get-gedə daha da güclənir. Çünki belə vəziyyət, mənzərə dünyada artıq formalaşmış, müəyyənləşmiş olan geosiyasi qüvvələrin yeni nisbətinin təsiri altında yaranır.

Tanınmış qərb politoloqu Duqinin ifadəsi ilə desək, «atlantizm» ideyası – konsepsiyası nümayəndələrinin baxışlarında, planlarında Rusiyanın mövcudluğu barədə hər hansı bir formada müsbətə bənzər heç bir model mövcud deyil və heç təsəvvürə belə gəlmir və onun üçün yalnız «o dünyaya gediş üçün bilet» nəzərdə tutulur. Qərbyönümlü rus siyasətçilərinin fikrincə, Rusiyaya bölünmə və parçalanmanın «Avrasiya xaosu» aqibəti hazırlanmışdır (1, 169).

Belə fikirlər heç də təsadüfi xarakter daşımır və boş-boşuna, elə-belə də yaranmamışdır.

Bunun üçün 1992-ci ilin sonunda B.Klintonun təsdiq etdiyi direktivlərinin mətbuata sızmış açıqlamasının müəyyən hissələrinin nəzərdən keçirilməsi kifayət edir. Həmin direktivlərdə ABŞ-ın birinci atom zərbəsini endirmək hüququna malik olmadan və ABŞ nüvə başlıqlarının Rusiya və Çinin hərbi və mülki obyektlərinə istiqamətlənməsindən danışılır. Lakin sonradan B.Klinton 1998-ci ilin sonunda özünün ÇXR-ə rəsmi səfəri gedişində Çinin bu siyahıdan çıxarıldığını bəyan etdi (7, 102-103).

B.Klinton bu mövzuda daha açıq və cəsarətli fikirlərini ABŞ ordusunun qərargah rəisləri qarşısında etdiyi çıxışında bildirmişdi. ABŞ prezidenti Rusiyanı diz çökdürmək, onu 3 hissəyə – Rusiya, Sibir və Uzaq Şərq respublikalarına bölmək vəzifəsinin həyata keçirilməsinə nail olmaqdan bəhs edərək bunu heç də gizlətmək niyyətində olmadığını bildirmişdi. Bu mövzuda B.Klintondan əvvəl tanınmış politoloq, keçmiş dövlət katibi Z.Bzejinski çıxış etmiş və onun oxşar fikir və planları dünya mətbuatında geniş əks-səda doğurmuşdu (8, 56-57).

Lakin bunu görməmək olmaz ki, ABŞ siyasətində antirus istiqaməti həmişə saxlansa da, o, Rusiyanın qlobal geosiyasətdə rolu və yerinin qiymətləndirilməsində kəskin radikal fikirlər söyləməkdən çəkinir və çox zaman bu istiqamətdə söylənən fikirlər müəyyən qədər yumşaldılır.

Bunun üçün yalnız bir faktı nəzərdən keçirmək kifayət edər. Böyük Britaniya Kral Hərbi Akademiyası yanında konfliktlərin Araşdırılması Mərkəzinin əməkdaşı Ceyms Şerr öz məqalələrinin birində etiraf edirdi ki, Çinə, İrana və ya İraqa münasibətdə Rusiyanın özünün xüsusi milli maraqlarının olması şübhəsizdir və bu maraqlar zaman-zaman Qərbin maraqlarından tam fərqlənir. C.Şerr fikrinə davam edərək yazırdı ki, əgər Moskva, hətta azacıq da olsa, «inteqrasiya», «regional təhlükəsizlik», «sülhə və ya sabitliyə nail olmaq» və s. adlarla öz qonşularına təzyiq göstərsə, onda bu, indiki dünyada qəbul edilməz bir hal olacaq və müvafiq reaksiya ilə qarşılanacaq (1, 203).

Beləliklə, Rusiyanın qonşu ölkələrlə, o cümlədən Asiya ölkələri ilə münasibətlərinin inkişaf perspektivləri, ya əvvəlcədən müəyyən çərçivələrlə məhdudlaşdırılır, ya da açıq-aşkar Rusiyaya qarşı düşmənçilik mövqelərinin yaradılmasına aparıb çıxarır.

## ƏDƏBİYYAT


1. Быков Федор. Геополитическая роль России в Азии // Российское аналитическое обозрение, 1998, №8-9, 140-172 с.
2. Беляев Сергей. Расширение НАТО на Восток: второй круг // Евразия, 1998, №2 (28), с. 131-134.
3. http://humanities.edu.ru/db/msg/23781
4. http://his95.narod.ru/doc.7/24_8.htm
5. Арбатов Алексей. НАТО – главная проблема для европейской безопасности. Независимая газета. 1999, 16 апреля
6. Иванов П., Халоша Б. НАТО и интересы безопасности России // Мировая экономика и международные отношения. 1997, №8, с. 80-93.
7. Концепция национальной безопасности Российской Федерации (утв. Указом Президента РФ от 10 января 2000 г, №24).
8. Рогов С.М. Россия и США на пороге XXЫ века // Свободная мысль, 1997, №5, с. 53-58.


## ГЕОПОЛИТИЧЕСКАЯ РОЛЬ РОССИИ В АЗИИ


**М.П.ОСМАНЛЫ**


## РЕЗЮМЕ


В начале XXI века начинается взаимодействия с новых форм между европейскими и азиатскими странами, но этот процесс проходил без участия России. В общем, та позиция России, его мнение и отзыв редко принималось во внимание.

В статье расследуются геополитическое поражение России в Азии, аспекты русско-японских отношений, а также перспективы отношений России со странами Азии.



**Ключевые слова**: Россия, Азия, США, геополитика, континент


## GEOPOLITICAL ROLE OF RUSSIA IN ASIA


**M.P.OSMANLI**


## SUMMARY


The XXI century begins with new forms of interaction between European and Asian countries, but the process is carried out without the participation of Russia. In general, the position of Russia, his opinion and review are rarely taken into account.

The paper investigated geopolitical defeat of Russia in Asia, aspects of Russian-Japanese relations, as well as the prospects of Russia's relations with Asia.



**Key words**: Russia, Asia, USA, geopolitics, continent